# Bakıda "Yeni media mühitində təhsil və məşğulluq imkanları" adlı konfrans keçirilib

Noyabrın 29-da Medianın İnkişafı Agentliyinin (MEDİA) təşkilatçılığı ilə "Yeni media mühitində təhsil və məşğulluq imkanları" "MEDİAlab" layihəsinin hesabat konfransı keçirilib.




AZƏRTAC xəbər verir ki, konfransın açılış mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov dünya miqyasında rəqəmsal texnologiyaya sürətli keçidin, iqtisadiyyatın bütün ənənəvi sahələrində olduğu kimi media sahəsində də innovasiya və texnologiyaların tətbiqinin və ən əsası bunu bacara bilən kadrların hazırlanmasının zəruriliyini qeyd edib. O bildirib ki, "MEDİAlab" layihəsinin fəaliyyət planının tədris proqramına uyğunlaşdırılması məqsədilə layihənin tərəfdaş universitetlərində təhsil alan 1000-ə yaxın tələbə arasında keçirilən sorğu nəticələrinin data əsaslı təhlili, media subyektləri ilə davamlı iş və çoxtərəfli kommunikasiya nəticəsində inkişafla bağlı hiss edilən ehtiyaclar, media sahəsində məşğulluqla bağlı həm yerli, həm də beynəlxalq tendensiyaların müqayisəli analizi və gənclərə məşğulluq imkanlarının yaradılmasının beynəlxalq təcrübədə verdiyi müsbət nəticələr bir daha gənclərə və gələcəyə ümidli olmağa əsas yaradır.

Əhməd İsmayılov vurğulayıb ki, bu gün qısa bir müddətdə layihə çərçivəsində əldə edilən uğurlar, növbəti mərhələdə bu sahədə təcrübə və məşğulluq imkanları ilə bağlı daha təkmil mexanizmlərin hazırlanması məqsədilə imzalanan Çoxtərəfli Əməkdaşlıq Memorandumu hər bir tərəfdən prosesin dəstəklənməsi və ümumi yanaşmanın uyğunluğunun göstəricisidir.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli media sahəsində işəgötürənlərə dəstək xidmətinin əhatə dairəsinin genişləndirilməsi, eyni zamanda bu istiqamətdə davamlı tədbir və proqramların təşkili məqsədilə imzalanan Çoxtərəfli Əməkdaşlıq Memorandumu haqqında fikirlərini bölüşüb.

O bildirib ki, bu gün media həyatımızın hər bir sahəsinə daxil olub. Media ölkənin inkişafında cəmiyyətin dövlətlə ünsiyyətində çox ciddi alətə çevrilib. Bu, hər zaman belə olub, amma bu gün özünü daha qabarıq göstərir. Texnologiyanın, sosial medianın inkişafı medianı tamamilə fərqli müstəviyə gətirib çıxarıb.

Konfrans zamanı "MEDİAlab" layihəsi çərçivəsində keçirilən tədbirlərdən görüntülərin əks olunduğu videoçarx nümayiş etdirilib. Sonra Medianın İnkişafı Agentliyinin "Media dəstək layihələri və strateji planlaşdırma" şöbəsinin müdiri Ləman İsgəndərova layihə haqqında ətraflı məlumat verərək, onun gənclərin yaradıcı düşüncəsini inkişaf etdirməyə, müasir media çağırışlarına uyğun yeni ideyaların formalaşmasına və məzmun istehsal etmə bacarıqlarının inkişafı üçün əlverişli mühit yaratmasına, komanda ilə işləmə bacarıqlarını təkmilləşdirməyə yönəlməsindən danışıb.

Tədbir çərçivəsində istedadlı və təşəbbüskar gənclərin seçilməsi, müvafiq istiqamətlər üzrə potensial kadrların müəyyənləşdirilməsi məqsədilə Medianın İnkişafı Agentliyi və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin birgə təşkilatçılığı ilə keçirilən "Kreativ Media - Bakı" adlı məzmun müsabiqəsinin nəticələri açıqlanıb, qalib seçilən 20-yə yaxın gəncə mükafatlar verilib.

Konfransın sonunda layihənin əsas tərəfdaşları olan ali təhsil müəssisələrindən əlaqələndirici şəxslərə nəticələrin əldə olunmasındakı dəstəyə, ümumi layihənin təşkilində göstərdikləri etimad və bu sahənin inkişafına verdikləri töhfəyə, səmərəli əməkdaşlığa, layihə çərçivəsində seçilən MEDİA səfirlərinə isə fəal iştiraklarına görə təşəkkürnamələr təqdim olunub.

"MEDİAlab" layihəsinin əsas məqsədi media sahəsində innovasiya və inkişafyönümlü fəaliyyətin davamlılığının təmin edilməsi, təhsil prosesində ənənəvi medianın rəqəmsal mediaya inteqrasiyasının dəstəklənməsi, texnoloji transformasiya zəncirinin əsas halqalarından olan insan resurslarının inkişafı üçün müvafiq sahədə kadr potensialının artırılması, media subyektləri və ali təhsil müəssisələri arasında qarşılıqlı fəaliyyət və əməkdaşlığın genişləndirilməsinə dəstək göstərilməsi, gənclərə rəqəmsal media bacarıqlarının təkmilləşdirilməsi üçün əlverişli ekosistemin yaradılmasıdır.

Azərbaycan. - 2023.- 30 noyabr, № 261.- S.9.